# Valideynlər nə üçün qızları məktəbə qoymurlar?

## Astara və Yardımlı rayonlarındakı araşdırmalarımız nələri üzə çıxardı

Məlumdur ki, son illər ölkəmizdə təhsil sistemi dinamik inkişaf mərhələsindədir. İstər təhsilin məzmununda, istərsə də infrastrukturunda ciddi inkişaf müşahidə olunur. Təkcə paytaxtda deyil, ən ucqar kənd rayonlarında belə müasir standartlara cavab verən tədris ocaqları fəaliyyət göstərir. Lakin bütün bunlara baxmayaraq, təhsil sahəsində bir sıra problemlər hələ də qalmaqda davam edir. Ancaq etiraf edək ki, bu problemlərin bir çoxunun yaradılmasının və həll olunmamasının əsl səbəbkarları bir çox hallarda elə valideynlərin özləridir. Məhz elə budəfəki yazımızda da Azərbaycan təhsilinin əsrlərdən çox yaşı olan daşlaşmış problemlərindən birini – yetkinlik yaşına çatmış qızların təhsildən yayınması, daha dəqiq desək, yayındırılması ilə bağlı problemləri araşdıracağıq. Etiraf edək ki, bu problem əsasən Azərbaycanın cənub, şimal rayonlarında və Bakının bir sıra kəndlərində daha çox müşahidə olunur.

Məsələnin kökünü araşdırdıqda məlum olur ki, bu problem uzun illərdən bəri hökm sürür. Hələ XIX əsrin sonlarında Azərbaycanın görkəmli şəxsiyyəti, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev xalqımızın qızlarının-gələcək anaların savadlı, bilikli olması üçün ölkədə ilk qızlar məktəbi yaradıb. O, həmin dövrün mövhumatçı, avam və cəhalət içərisində yaşayan insanlarından fərqli olaraq düşünürdü ki, savadsız ana heç vaxt bilikli, dünyagörüşlü övlad yetişdirə bilməz. Bundan başqa, Hacı qadın həkimlərin, müəllimlərin və digər peşə sahiblərinin azərbaycanlılardan olmasının vacibliyini də dərindən dərk edirdi. Bütün bunları nəzərə alan Tağıyev bir çox mühafizəkar ruhanilərin, şəhər camaatının və çar hökumətinin maneələri ilə rastlaşmasına baxmayaraq öz şəxsi vəsaiti hesabına qızlar məktəbini yaratdı. Lakin əsrlər, qərinələr keçməsinə və ölkəmizin dünyanın sivil dövlətlərindən biri olmasına baxmayaraq bir sıra valideynlər hələ də köhnə fikirlərindən əl çəkmir, qız övladlarının təhsil almalarını vacib hesab etmirlər. Onlar övladlarını yalnız zəruri hallarda– “ya məktəbə aidiyyəti üzrə yoxlamalar gələndə”, ya da müxtəlif fənlərdən “yazı işi” yazmaq lazım olanda məktəbə buraxırlar. Bununla da həmin şagirdlər yalnız formal olaraq təhsil alırlar. Məsələ ilə bağlı mövcud vəziyyəti yerində öyrənmək və problemin səbəblərini dərindən araşdırmaq məqsədilə bir sıra ucqar rayonlarda olduq. Məktəblərdə müşahidələr apardıq, təhsil işçiləri ilə söhbətləşdik.


Yardımlı rayon Şəfəqli kənd tam orta məktəbi


Yardımlı rayon Perimbel kənd tam orta məktəbi


Astara rayon Suparibağ kənd tam orta məktəbi


Astara rayon Suparibağ kənd tam orta məktəbi

### Astarada gördüklərimiz

Yolumuzu öncə Astara rayonuna saldıq. Təhsil şöbəsinə gəlişimizin məqsədini bildirdikdən sonra Suparibag kənd tam orta məktəbinə yollandıq. X sinifdə apardığımız müşahidələr zamanı məlum oldu ki, 21 şagirddən yalnız 8 nəfəri sinifdədir. Həmin 8 nəfərin əksəriyyəti isə oğlanlardan ibarət idi. 6 qız sinifdə yox idi. Məktəb rəhbəri bunun səbəbini şagirdlərin mövsümi işlərdə çalışması ilə əlaqələndirməyə cəhd etsə də, ancaq əsl həqiqət bizə onsuz da məlum idi.

Sonra məsələ ilə bağlı müşahidələrimizi Selekəran ümumi orta məktəbində apardıq. Analoji hal burda da özünü qabarıq şəkildə göstərirdi. IX sinifdə dərsə gəlməyən 3 uşaqdan ikisi qız idi. Şagirdlərlə söhbətimizdən məlum oldu ki, həmin qızlar nadir hallarda dərsə gəlirlər. Şagirdlərin dediyinə görə, onların da təhsildən yayınmasının səbəbkarı valideynləridir.

Üz tutduğumuz növbəti tədris ocağı Artupa tam orta məktəbi idi. Yeni tikilmiş və müasir avadanlıqlarla təmin olunmuş məktəbdə gəlişimizi öncədən bilmələrinə rəğmən davamiyyət bir o qədər də yaxşı deyildi. Burada da yuxarı siniflərdə oxuyan qızlardan dərsə gəlməyənlər var idi. Müəllimlər özləri də etiraf etdilər ki, qızların arasında dərsə az-az gələnlər var. Direktor isə şagirdlərin olmamasının çəltik əkini ilə bağlı olduğunu nəzərimizə çatdırdı.

*Məsələ ilə bağlı Astara Rayon Təhsil Şöbəsinin müdiri Qızbəst Məmmədovanın fikirlərini də öyrəndik:* “Çox vacib bir məsələyə toxunmusuz. Rayonumuzda qız uşaqlarının yetkinlik yaşına çatdıqdan sonra dərsdən yayınma faktları var. Düzdür, bu hal bir o qədər də kütləvilik daşımır, amma problem kimi hələ də mövcud olaraq qalır. Bu yöndə apardığımız araşdırmalardan məlum olub ki, burada obyektiv və subyektiv səbəblər var. Məsələn, obyektiv səbəblərə gəldikdə deyə bilərik ki, Astara rayonunda ümumi orta məktəblərin sayı çoxluq təşkil edir. Həmin məktəbi bitirən şagirdlər tam orta məktəbə getmək üçün yaxınlıqdakı kənddə təhsilini davam etdirməlidir. Elə kəndlər var ki, onların arasındakı məsafə 5 km-dir. Belə uşaqların da yolu, şübhəsiz, meşə ərazisindən və çaylardan keçir. Valideynlər yetkinlik yaşına çatmış qız uşaqlarının bu məsafəni piyada getməsinə razı deyillər. Belə olan halda 10-11-ci siniflərdə qız uşaqlarının məktəbə gəlişində problemlər yaranır. Biz təhsil şöbəsi olaraq bu problemin həlli istiqamətində müəyyən müzakirələr aparırıq. Belə ki, internat tipli məktəblərin sayının çoxalmasını vəziyyətdən çıxış yolu olaraq görürük. Lakin bu məsələdə də valideynlərin fikri müxtəlifdir. Valideynlər qızlarının orda gecələməsinin bir o qədər də tərəfdarı deyillər. Subyektiv səbəblərə gəldikdə isə onu xüsusilə qeyd etmək istəyirəm ki, valideynlərin maarifpərvər olmaması uşaqların davamiyyətinə çox təsir göstərir. Bəzi valideynlər qızların erkən ailə qurmasının vacib olduğunu düşünürlər. Bu məsələyə artıq rayon mərkəzlərində də rast gəlinir. Belə valideynlər övladlarının sabahını fikirləşmir. Qızlarını ərə verməklə valideyn kimi missiyalarını başa vurduqlarını düşünürlər. Belə ki, 10 və 11-ci sinifdə oxuyan qız uşaqlarının nişanlanmasını və ailə qurmasını önəmli sayırlar. Onlar başa düşmürlər ki, uşaqların gələcəyi üçün təhsilli olması çox vacibdir. Bu problemə qarşı da rayon təhsil şöbəsi olaraq ciddi mübarizə aparırıq. Vaxtaşırı maarifləndirici tədbirlər keçiririk. Lakin buna baxmayaraq erkən nikah halları ilə yenə də rastlaşırıq. Belə hallarla rastlaşan kimi biz tez polis şöbəsinə və prokurorluğa müraciət edirik. Məsələnin subyektiv səbəblərindən biri də bəzi valideynlərin maddi vəziyyətləri ilə əlaqədar uşaqlarını müxtəlif işlərə cəlb etməsi ilə bağlıdır. Bundan başqa, valideynlər övladlarını ticarət məqsədilə də təhsildən kənarda saxlayırlar.

### Yardımlıda nələrin şahidi olduq

Yardımlıdakı vəziyyəti də yerində araşdırmaq məqsədilə rayon mərkəzinə yollandıq. Təhsil şöbəsinin aparıcı məsləhətçisi ilə birlikdə məktəblərdə olduq. İlk getdiyimiz məktəb Gavran kənd tam orta məktəbi oldu. X sinifdə davamiyyəti yoxlayarkən məlum oldu ki, 10 şagirddən 3 nəfəri yoxdur və həmin 3 nəfərin 2-si qızlardır. XI sinifdə də təhsil alan 10 nəfərdən 3 nəfər yox idi ki, bunların da 3-ü qızlar idi. Fürsətdən istifadə edib məktəbin müəllimlər otağında pedaqoji kollektivlə də görüşdük. Onlar da qızların oğlanlarla müqayisədə dərsə az gəldiyini təsdiqlədilər. Müəllimlər otağında olarkən bir məsələ də diqqətimizdən yayınmadı. Belə ki, müəllimlərin arasında bir nəfər də olsun qadın müəllim görmədik. Direktora “Məktəbdə neçə nəfər qadın müəllim var”- sualını verdikdə isə bildirdi ki, tədris ocağında cəmi 22 müəllim işləyir və onların yalnız 4 nəfəri qadındır. Bundan başqa, müəllimlər onu da xüsusilə vurğuladılar ki, məktəbdə əvvəllər dərs dedikləri yaxşı oxuyan qızların indi də övladlarına dərs deyirlər. Həmin uşaqlar digər zəif təhsil alan qızların övladlarından daha bilikli, hazırcavabdırlar.

Sonra rayonun ucqar dağ kəndlərindən olan Perimbel kənd orta məktəbində olduq. Açığı ucqar dağ kəndi olduğu üçün düşünürdük ki, burada vəziyyət daha acınacaqlı olar. Lakin məktəbdə müşahidələr apardıqda davamiyyətin yaxşı olduğunu gördük. Direktor yalnız bir qız şagirdin dərslərə arabir gəldiyini bildirdi. Səbəbini isə həmin şagirdin valideyninin maldarlıqla məşğul olması ilə əlaqələndirdi.

Növbəti olduğumuz tədris ocağı rayonun Şəfəqli kənd tam orta məktəbi idi. Yeni tikilmiş müasir görkəmli bu tədris ocağında siniflərə baxış keçirərkən məlum oldu ki, X sinifdə jurnal üzrə 18 şagird olmasına baxmayaraq cəmi 3 uşaq var, onların da hamısı oğlanlardır. Bundan başqa IX və XI siniflərdə də təhsil almalı olan qızlardan heç birini görmədik. Beləliklə, 3 sinifdə - IX, X, XI siniflərdə təhsil alan 15 qızdan heç biri məktəbdə yox idi. Direktordan bunun səbəbini soruşduqda isə bildirdi ki, bunlar nişanlı olan və bu səbəbdən valideynləri tərəfindən dərsə buraxılmayan, bir də mövsümi işlərə cəlb olunanlardır.

Sonra rayonun Çayüzü kənd tam orta məktəbinə yollandıq. İnsafən desək, burada ümumi davamiyyət yaxşı vəziyyətdə idi. Yuxarı siniflərdə bir-iki nəfər istisna olmaqla şagirdlərin əksəriyyəti yerində idi. Qızlar da çoxluq təşkil edirdi. Lakin şagirdlərlə apardığımız söhbətlər zamanı məlum oldu ki, bu məktəbdə də dərsə daimi gəlməyən qız uşaqları var. Direktor müavini həmin qızlardan birinin nişanlı olmasını, digərinin isə sinifdə tək qız olduğu üçün valideynləri tərəfindən məktəbə buraxılmamasını diqqətə çatdırdı.

Mövcud vəziyyətlə bağlı Yardımlı rayon təhsil şöbəsinin müdiri Manaf Səmədzadənin fikirləri: “Rayonumuzda şagirdlərin dərsə davamiyyəti ilə bağlı bəzi çətinliklərlə üzləşirik. Bunun bir çox səbəbləri var. Əsas səbəblərdən biri nəqliyyat və yol məsələsidir. Əsasən də qış aylarında şagirdlər məktəbə gəlməkdə çətinlik çəkirlər. Qızların uzaq yolu piyada gəlməsinə valideynlər bir o qədər də razı deyil. Digər əsas səbəblərdən biri isə qız uşaqlarının 15-16 yaşlarında tez nişanlanması və erkən nikahla bağlıdır. Bizim rayonda işləyən müəllimlərin 95 faizi kişilərdir. Acınacaqlı olsa da qeyd edim ki, elə valideynlər var ki, qız uşaqlarını məktəbdə kişi müəllimlərinin çox olması ilə əlaqələndirərək dərsə qoymurlar. Bundan başqa, valideynlər əkinçilik, maldarlıq və bostançılıq işlərində də qız uşaqlarının əməyindən istifadə edirlər. Hazırda bostançılıq mövsümü ilə əlaqədar şagirdlərin dərsdən yayınması hallarına daha çox rast gəlinir. Biz aidiyyəti qurum olaraq bu kimi halların qarşısını almaq məqsədilə ciddi işlər görürük. Şagirdlərin davamiyyətinə xüsusi diqqət yetiririk. Bir sıra maarifləndirici tədbirlər həyata keçiririk. Bir məsələni də qeyd edim ki, son vaxtlar rayonumuzda erkən nikahla bağlı məsələlərdə əvvəlki illərlə müqayisədə müsbətə doğru irəliləyiş var. Bundan başqa, qəbul imtahanlarında, müxtəlif müsabiqə və yarışlarda yüksək nəticə əldə edən qızların sayı getdikcə çoxalır. Keçən il qəbul imtahanlarında 600-dən yuxarı bal toplayaraq nüfuzlu ali məktəblərə qəbul olanların içərisində qızların da olması qürurverici haldır. Bu gün olimpiadalarda və bir çox önəmli müsabiqələrdə bizim rayonun qız uşaqlarının yüksək nəticələrlə iştirak etməsi onu göstərir ki, qızların əvvəlki illərlə müqayisədə dərsə davamiyyəti yaxşılaşmaq üzrədir. Əvvəlki illərdə rayon üzrə ali məktəblərə qəbul olan qız uşaqları 5 və 6 nəfər idisə indi bu rəqəm 35-ə yaxındır”.

### Oxutmuram, əl çəkin!

Araşdırmalarımızdan məlum oldu ki, qızların təhsildən erkən ayrılmasının əsas səbəbkarı valideynlərdir. Onların maarifpərvər olmaması, övladlarını erkən nikaha məcbur etmələri qızların təhsildən kənarda qalmasına səbəb olur. Bundan başqa, uşaqların maddi imkanlarının zəif, oxumaq arzularının aşağı olması və digər səbəblər də qızların təhsildən yayınmasına gətirib çıxarır. Belə olduğu təqdirdə isə təhsildən kənarda qalan qızlar cəmiyyətdə müxtəlif problemlərlə qarşılaşırlar. Müvafiq dövlət qurumları, inzibati idarəetmə orqanlarının nümayəndələri isə ciddi müqavimətlə üzləşdikləri üçün bir çox hallarda geri çəkilməli olurlar. Nəticədə isə, son sözü valideynlər deyir. Necə ki, bir əsr öncə böyük Sabir deyirdi: “Oxutmuram, əl çəkin!”.

**Niyazi RƏHİMOV,**
**Rəşad ZİYADOV,**
*“Azərbaycan müəllimi”*